**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASININ AZƏRBAYCAN - TÜRKİYƏ MODELİ

İxtisas: 5908.01 – Siyasi nəzəriyyə
Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Lamiyə Ramiz qızı Axundova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Sosial fənlər" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | siyasi elmlər doktoru, professor<br>**Elçin İldırım oğlu Əhmədov** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, dosent<br>**Elşad Mirbəşiroğlu** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Afət Ağa Əli qızı Səfərova** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Samirə İlham qızı Həbibbəyli** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının FD 2.30 Dissertasiya Şurası nəzdində fəaliyyət göstərən BED 2.30 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi Seminarın sədri: | siyasi elmlər doktoru, dosent<br>**Kənan Hüseyn oğlu Allahverdiyev** |

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Enerji təhlükəsizliyi müasir mərhələdə milli təhlükəsizliyin ən vacib və elementlərindən biri hesab edilir. Əgər əvvəlki dövrlərdə enerji təhlükəsizliyi məsələsinə sadəcə iqtisadi təhlükəsizliyin daxili elementlərindən biri kimi baxılırdısa, XX-XXI əsrlərdə enerji ehtiyatlarına artan tələb onun ayrıca bir məfhum kimi nəzərdən keçirilməsini zəruri etmişdir. Çünki enerji ehtiyatları müasir dünyada sadəcə olaraq iqtisadi təsir vasitəsi deyil, həm də siyasi təsir alətidir. Bəzi hallarda karbohidrogen ehtiyatlarından siyasi, hətta hərbi-siyasi problemlərin həlli üçün vasitə olaraq istifadə edilir. Bir çox dövlətlər "enerji ehtiyatları milliyyətçiliyi" siyasəti yürüdərək özlərinin xarici dünyaya qarşı müdafiə mexanizmlərini formalaşdırırlar. Müasir dünya elə bir mərhələyə gəlib çatmışdır ki, nə zəngin enerji ehtiyatlarına sahib olan ölkələr, nə də bu enerji ehtiyatlarının alıcısı olan ölkələr öz təhlükəsizliklərini təcrid olunmaqla təmin edə bilməzlər. Enerji ehtiyatlarına sahib olan ölkələr hasil olunan resursları dünya bazarına çıxarmaq üçün etibarlı və şaxələndirilmiş enerji marşrutlarına ehtiyac duyurlar. Əlverişli geosiyasi mövqedə yerləşən ölkələr isə mümkün olduqca daha çox enerji ehtiyatları ixracatçısı olan qonşularının onların ərazisindən tranzit məkan kimi istifadəsində maraqlıdırlar. Bu onlara əlavə iqtisadi gəlirlər gətirməklə yanaşı, həm də siyasi sahədə bir sıra dividentlər əldə etmək imkanı yaradır. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında siyasi, iqtisadi, mədəni, hərbi sahədə sıx əlaqələr mövcuddur. İki ölkə arasında enerji sahəsində əməkdaşlığın beynəlxalq münasibətlər baxımından öyrənilməsi istiqamətində tarixşünaslıqda və siyasətşünaslıqda müəyyən tədqiqatlar aparılsa da, bu əməkdaşlığın ayrıca model kimi siyasi nəzəriyyə baxımından tədqiqi aparılmamışdır. Azərbaycanın enerji resurslarını dünya bazarlarına daşıyan beynəlxalq neft və qaz kəmərlərinin reallaşmasından sonra Azərbaycan enerji resurslarının Türkiyənin enerji təhlükəsizliyində yaratdığı müsbət meyllərin araşdırılması həmişə aktual mövzulardan biri olmuşdur. Məsələnin konseptual səviyyədə təhlil edilməsi, Azərbaycan Respublikasının enerji resurslarının Türkiyənin enerji təhlükəsizliyi üçün mühüm

əhəmiyyətə malik olduğu hipotezinin doğrulanması baxımından mühüm əhəmiyyətə malikdir.

Mövzunun aktuallığını şərtləndirən amillər aşağıdakılardır:

- Son onilliklərdə enerji resurslarının geosiyasi əhəmiyyəti artmış, enerji daşıyıcılarının təhlükəsiz və dayanıqlı şəkildə istehsalı, nəqli və paylanması beynəlxalq gündəmin əsas məsələlərindən birinə çevrilmişdir. Bu kontekstdə də Azərbaycan–Türkiyə əməkdaşlığı, enerji təhlükəsizliyinin təmin olunmasında regional model kimi diqqət mərkəzindədir.

-Azərbaycan və Türkiyə arasında qurulmuş müttəfiqlik münasibətləri enerji sahəsində həyata keçirilən ortaq layihələrlə daha da güclənmişdir. Bakı–Tbilisi–Ceyhan (BTC), Bakı–Tbilisi–Ərzurum (BTƏ) və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) kimi strateji layihələr bu əməkdaşlığın praktik nəticələridir. Bu layihələr yalnız ikitərəfli deyil, Avropa enerji təhlükəsizliyi üçün də həyati əhəmiyyət kəsb edir.

-Rusiya–Ukrayna münaqişəsi və digər geosiyasi gərginliklər nəticəsində Avropa ölkələri enerji təchizatında alternativ marşrutlara və etibarlı tərəfdaşlara ehtiyac duyurlar. Bu kontekstdə Azərbaycan etibarlı təchizatçı, Türkiyə isə mühüm tranzit ölkə kimi strateji əhəmiyyət kəsb edir. Bu amil də Azərbaycan–Türkiyə enerji əməkdaşlığı modelinin beynəlxalq miqyasda aktuallığını artırır.

- 2024-cü ildə Azərbaycanda keçirilmiş COP 29 konfransı fonunda ölkənin yaşıl enerji diplomatiyasına və bərpa olunan enerji sektoruna yönəlmiş strategiyaları ön plana çıxır. Türkiyə ilə bu sahədə əməkdaşlıq perspektivləri enerji təhlükəsizliyi modelinin davamlılıq və ətraf mühit aspektlərində də aktuallığını gücləndirir.

- Enerji təhlükəsizliyi milli təhlükəsizlik və iqtisadi inkişafla birbaşa bağlıdır. Azərbaycan və Türkiyənin ortaq enerji siyasəti, regionda sabitliyin və inkişafın təmin olunmasında mühüm rol oynayır. Bu baxımdan, mövcud modelin öyrənilməsi digər ölkələr və regionlar üçün də praktiki və nəzəri töhfələr verə bilər.

Bəllidir ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında enerji sahəsində xarakterik xüsusiyyətləri ilə seçilən əməkdaşlıq modelinin formalaşması görkəmli dövlət xadimi Heydər Əliyevin yürütdüyü siyasət, Türkiyə-Azərbaycan əməkdaşlığı ilə bağlı

tutduğu qətiyyətli mövqe ilə birbaşa bağlıdır. Onun nitqlərinin və çıxışlarının, eləcə də müxtəlif görüşlərdə apardığı danışıqların əksini tapdığı 46 cildlik "Müstəqilliyimiz əbədidir" çoxcildliyi mühüm mənbə bazasını təşkil edir.[1] Bu əməkdaşlıq modelinin hansı şəraitdə, niyə formalaşdığının aydınlaşdırılması üçün bu materiallar önəmlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə özünün strateji xarakterli addımları ilə bu modelin sistem olaraq tamamlanmasına və dünya tərəfindən öyrənilməsinə nail olmuşdur. Prezident İlham Əliyevin nitqləri, çıxışlarının mətnlərinin toplanıldığı "İnkişaf məqsədimizdir" çoxcildliyi,[2] eləcə də 2003-cü ildə Moskvada nəşr edilmiş "Azərbaycanın Xəzər nefti" əsəri bu modelin xarakterik xüsusiyyətlərinin öyrənilməsi üçün ən mühüm əsərlər hesab edilə bilər.[3]

Azərbaycan və Türkiyə arasında enerji sahəsində əməkdaşlığın siyasi, iqtisadi, tarixi aspektlərinə dair həm bir sıra tədqiqat əsərləri yazılmışdır. Azərbaycanlı tədqiqatçılardan Elçin Əhmədov, Elman Nəsirov, Ərəstun Mehdiyev, Musa Qasımlı, Etibar Musayev, Samir Quliyev, Elçin Süleymanov, Fəxri Həsənov, İlham Əlizadə, Günel Adıgözəlova və başqaları müxtəlif əsərlərində Azərbaycan Respublikası ilə Türkiyə arasında enerji sahəsində əməkdaşlıqla bağlı müxtəlif məqamlara toxunmuşlar.

E.Əhmədovun bir sıra məqalələrində müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının müxtəlif istiqamətləri təhlil olunmuş, Azərbaycan Respublikasının Aİ və onun üzvü olan ölkələrlə enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı tədqiq edilmiş, bu prosesdə Türkiyə Cümhuriyyətinin rolu qiymətləndirilmişdir.[4]

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. -Bakı: Azərnəşr, c. 44. -2013. -376 s.

[2] Əliyev, İ.H. İnkişaf – məqsədimizdir: [142 cilddə] / İ.H.Əliyev. –Bakı: Azərnəşr, c. 65. –2018.–400 s. ; c. 90. –2019. –392 s.; c. 117. –2022. –392 s.

[3] Алиев, И.Г. Каспийская нефть Азербайджана/ И.Г.Алиев. –Москва: Известия, -2003. -712 с.

[4] Əhmədov, E.İ. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı // -Bakı: Geostrategiya, -2012. -№6 (10). -s. 33-37.
Əhmədov, E.İ. Milli maraqlara xidmət edən "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın enerji təhlükəsizliyi tam təmin edildi: [Elektron resurs] /Azərtac, -20 sentyabr, 2020. URL: https://azertag.az/xeber/Milli_maraqlara_xidmet_eden_Asrin_muqavilesinin_imzalanmasi_ile_Azerbaycanin_enerji_tehlukesizliyi_tam_temin_edildi-1589831

E.Nəsirovun “Azərbaycan nefti və beynəlxalq müqavilələr. 1991–1999-cu illər” adlı monoqrafiyası müəyyən xronoloji çərçivədə enerji sahəsində Azərbaycan –Türkiyə əməkdaşlıq modelinin xüsusiyyətlərinin öyrənilməsi üçün əhəmiyyətli mənbələrdən biridir.[5]

Ə.Mehdiyevin məqalələrində Türkiyə ilə Azərbaycan Respublikası arasında enerji sahəsində əməkdaşlıq başlıca mövzulardan birini təşkil edir. Müəllifin 2018-ci ildə nəşr olunmuş “Enerji resurslarının nəqlində Azərbaycan-Türkiyə əməkdaşlığı: “Nabukko”dan “Cənub qaz dəhlizi”nə” adlı məqaləsi bu cəhətdən diqqəti cəlb edir.[6]

M.Qasımlının əsərlərində Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin qurulması, müqavilə-hüquqi bazasının yaradılması, enerji sahəsində əməkdaşlığa dair əldə olunmuş dövlətlərarası razılaşmaların, imzalanan müqavilə və sazişlərin mahiyyəti təhlil edilmişdir.[7]

S.Quliyevin Azərbaycanın Bakı-Tbilisi-Ceyhan strategiyası və regional rəqabət probleminə həsr edilmiş məqaləsində enerji resurslarını daşıyan kəmərlərin təhlükəsizlik məsələsi təhlil edilmiş, enerji sahəsində əməkdaşlığın təhlükəsizlik sahəsində də dövlətlərarası əməkdaşlığa təsirləri göstərilmişdir.[8]

E.Süleymanov və F.Həsənovun həmmüəllifliyi ilə çıxmış məqalədə Azərbaycanın Türkiyənin enerji sektoruna investisiyalarının Azərbaycan-Türkiyə iqtisadi əlaqələrində rolu məsələsinə diqqət yetirilmişdir.[9]

---

[5] Nəsirov, E. Azərbaycan nefti və beynəlxalq müqavilələr. 1991–1999-cu illər / E.Nəsirov. –Bakı: Qanun, -1999. -104 s.

[6] Mehdiyev, A. Enerji Kaynaklarının Naklinde Azerbaycan-Türkiye İşbirliği: “Nabucco”dan “Güney Gaz Koridoru”na" // –Ankara: Atatürk Araştırma Merkezi Dergisi, –2018. № 34, – s.241-264.

[7] Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 hissədə] / M.C.Qasımlı.– Bakı: Mütərcim, I hissə. –2015. –648 s.; II hissə. –2015. -640 s.; Azərbaycan Respublikasının tarixi (1991-2021): [2 cilddə] / M.C.Qasımlı. – Bakı: Bakı Dövlət Universiteti, I cild (1991-2003). – 2021. –384 s.; Qasımlı, M.C., Muradova, B.Ə. Azərbaycan parlamentarizmi tarixi: [2 cilddə] / M.Qasımlı, B.Muradova. –Bakı: Mütərcim, c. 2, -2018. –680 s.

[8] Quliyev, S. Azərbaycan Bakı-Tbilisi-Ceyhan strategiyası və regional rəqabət // -Bakı: Tarix və onun problemləri, -2014. № 1, -s.135-142.

[9] Süleymanov, E., Hasanov, F. Azerbaycanın Türkiyenin enerji sektörüne yatırımlarının Azerabycan-Türkiye ekonomik ilişkilerindeki rolü // – Çankırı:

İ.Əlizadənin məqaləsində 1994-cü il sentyabrın 20-də Türkiyə və bir sıra digər ölkələrin neft şirkətlərinin konsorsiumu ilə Azərbaycan Respublikası arasında "Əsrin müqaviləsi"nin imzalanması, neft siyasəti sahəsində Azərbaycan Respublikasının Türkiyə və digər tərəfdaşları ilə əməkdaşlığının beynəlxalq nüfuzunun möhkəmlənməsinə təsirləri təhlil edilmişdir.[10]

2013-cü ildə G.Adıgözəlova "Müasir dövrdə Cənubi Qafqazda Azərbaycan-Türkiyə strateji əməkdaşlığı"[11], C.Cahangirli "Regional təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycan-Türkiyə münasibətlərinin yeri və rolu",[12] A.Əsgərzadə "Azərbaycan Respublikasının Türkiyə ilə strateji əməkdaşlığı"[13] mövzularında dissertasiya işləri müdafiə etmişlər. Adıçəkilən tədqiqat işlərində də yeri gəldikcə iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə toxunulmuşdur.

Türk tədqiqatçısı H.M.Eravçının bir sıra əsərləri birbaşa olaraq Azərbaycan və Türkiyə arasında 1991-ci ildən sonrakı mərhələdə enerji sahəsində əməkdaşlıq fəaliyyətləri və bu əməkdaşlığın xarici siyasətə təsiri məsələlərinə diqqət yetirilmişdir.[14] N.Erdoğan TANAP layihəsinin ikitərəfli enerji əməkdaşlığındakı yerini və əhəmiyyətini qiymətləndirmişdir.[15]

---

Çankırı Karatekin Universiteti Uluslararası Avrasya Strateji Jurnalı, –2013. № 2/2, –s.73-100.

[10] Ализаде, И.Г. «Контракт Века» 1994 г. и его влияние на внешнюю политику Азербайджанской Республики // –Москва: Современная научная мысль, -2019. №2, –с. 180-188.

[11] Adıgözəlova, G.Ş. Müasir dövrdə Cənubi Qafqazda Azərbaycan-Türkiyə strateji əməkdaşlığı: / Siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ –Bakı, 2013. -158 s.

[12] Cahangirli, C.X. Regional təhlükəsizlik sisteminin formalaşmasında Azərbaycan-Türkiyə münasibətlərinin yeri və rolu::/ Siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ –Bakı, 2013. -146 s.

[13] Əsgərzadə, A.M. Azərbaycan Respublikasının Türkiyə ilə strateji əməkdaşlığı: / Siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ –Bakı, 2010. –164 s.

[14] Eravcı, H.M. Sovyetler Sonrası Azerbaycan–Türkiye Arasındaki Enerji İşbirliği Çalışmaları ve Dış Politikadaki Etkisi // –Ulisa: Journal of International Studies, № 3/1, –ss. 37-48.

[15] Erdoğan, N. TANAP Projesinin Türkiye ve Azerbaycan Enerji Politikalarındaki Yeri ve Önemi // –Niğde: Ömer Halisdemir Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, –2017. № 10(3), –ss.10-26.

Türkiyəli tədqiqatçılar B.Arasın və A.Yorkanın Avropa İttifaqının enerji təhlükəsizik məsələlərinə dair əsərində enerji sahəsində Azərbaycan-Türkiyə əməkdaşlıq modelinin Avropanın enerji təhlükəsizliyinə təsirləri ilə bağlı bir sıra məsələlərə də toxunulmuşdur.[16]V.Ayhan Avropa İttifaqının enerji təhlükəsizliyində birbaşa olaraq Türkiyənin roluna dair məqalə yazmış. Neft və təbii qaz idxal-ixrac əməliyyatlarının regional inteqrasiyaya təsirlərini qiymətləndirmişdir.[17] M.Çelikpalanın əsərlərində enerji əməkdaşlığı məsələlərində NATO ölkələrinin mənafeləri kontekstində baxılmış, bu baxımdan Türkiyənin yeri və rolu qiymətləndirilmişdir.[18] F.Demirin 2010-cu ildə dünyadakı enerji geosiyasətinə həsr etdiyi əsəri də mövzunun müxtəlif istiqamətlərinin aydınlaşdırılması üçün əhəmiyyətli məlumat mənbələrindən biridir.[19]

Rusiyalı müəlliflərindən S.Jukova, S.Jiznin, A.Kolomoyçeva, S.Pritçin, İ.Starodubçevin bir sıra əsərləri də mövzunun öyrənilməsi baxımından maraq doğurur. S.Jukovanın redaktorluğu ilə 2019-cu ildə nəşr edilmiş "Dünya enerjisi: rəqabət və əməkdaşlıq" adlı kitabda təqdim olunan ayrı-ayrı məqalələrdə qlobal iqtisadiyyatın və enerjinin transformasiyasında ən son tendensiyalar təhlil olunmuş, Avropada təbii qaz bazarının inkişafı məsələləri öyrənilmişdir.[20] Stanislav Jiznin və İqbal Quliyevin məqaləsi Xəzər dənizinin beynəlxalq hüquqi statusunun tənzimlənməsinin aktual problemləri, bu region ölkələrinin çoxtərəfli əməkdaşlığının əhəmiyyəti, bölgədə enerji marafonunun əsas iştirakçılarının, o cümlədən Türkiyənin maraqları təsvir edilmişdir.[21] Anna Kolomoyçeva Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istismarı məsələsinə dair məqaləsində Türkiyə hökumətinin neft

---

[16] Aras, B., Yorkan, A. Avrupa Birliği ve Enerji Güvenliği: Siyaset, Ekonomi ve Çevre / B.Aras, A.Yorkan. -İstanbul: TASAM Yayınları, -2005. -31 s.

[17] Ayhan, V. Avrupa'nın Enerji Arz Güvenliğinde Türkiye: Petrol, Doğal Gaz ve Entegrasyon // -Ankara: Uluslararası İlişkiler Jurnalı, -2009, № 5/20, –s. 155-178.

[18] Çelikpala, M. Enerji güvenliği NATO'nun yeni tehdit algısı / M.Çelikpala. –İstanbul: Bilgi Universiteti, –2013. –61 s.

[19] Demir, M. F. Enerji oyunu / M.F.Demir. –İstanbul: Ayrım yayınları, –2010. –184 s.

[20] Жукова, С.В. Мировая энергетика: конкуренция и сотрудничество / С.В.Жукова. –Москва. ИМЭМО РАН, –2019. -220 с.

[21] Жизнин, С.З., Гулиев, И.А. Энергетическая дипломатия в Каспийском регионе // –Москва: Вестник МГИМО Университета, –2012. № 1, – с. 241-247.

ixracının alternativ yolları axtarışı problemi öyrənilmiş, Bakı Tbilisi Ceyhan alternativ boru kəməri layihəsinin Türkiyənin fəal iştirakı ilə hazırlanması, bunun Türkiyənin postsovet məkanındakı ölkələrdə nüfuzuna təsirləri məsələlərinə toxunulmuşdur. Bununla bərabər qeyd etmək lazımdır ki, A.Kolomoyçeva məsələyə daha çox öz ölkəsinin subyektiv mövqeyindən yanaşmış və belə bir iddia irəli sürmüşdür ki, neftin ixracı üçün bu alternativ yoldan Türkiyə tərəfdən istifadə iqtisadi deyil, daha çox siyasi xarakter daşımışdır. [22] Stanislav Pritçinin məqaləsində isə Azərbaycan neftinin müstəqil marşrutlarla dünya bazarlarına çıxarılmasında Türkiyənin roluna da toxunulmuşdur. [23] İ.Starodubtsevin bir sıra məqalələrində Türkiyənin enerji strategiyası[24], Rusiya-Türkiyə çoxşaxəli enerji əməkdaşlığı[25] və digər məsələlər tədqiq və təhlil edilmişdir.

Bir çox digər xarici ölkə müəllifləri də enerji sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı məsələsinə əsərlərində xüsusi diqqət yetirmişlər. Aleksandr Murinson Azərbaycan-Türkiyə-İsrail əlaqələrində enerji amilinin əhəmiyyətinə dair 2008-ci ildə yazdığı məqalə bu sahədə ən mühüm tədqiqatlardan biridir. [26] Müəllif məqalədə Soyuq müharibədən sonrakı dövrdə təhlükəsizlik konsepsiyasının transformasiyasını işıqlandırımış, sonra o, karbohidrogenlərlə zəngin Xəzər regionunu enerji baxımından yoxsul Türkiyə və İsrailin enerji təhlükəsizliyi ehtiyacları kontekstində qiymətləndirmişdir. G.Uinrou məqalələrindən birində genişləndirilmiş Qara Dəniz bölgəsində geosiyasi proseslər və

---

[22] Коломойцева, А.Ю. К вопросу об эксплуатации основного экспортного трубопровода Баку - Тбилиси – Джейхан // –Москва: Вестник РГГУ. Серия: Политология. История. Международные отношения, – 2009. №. 8, -с. 102-109.
[23] Притчин, С.А. Энергетический сектор как ключевой фактор регионального лидерства Азербайджана // –Москва: Постсоветские исследования, –2021. №.2, -с. 109-118.
[24] Стародубцев, И.И. Энергетическая стратегия Турции: [Электронный ресурс] / Институт Ближнего Востока. -2006. URL: http://www.iimes.ru/?p=4760
[25] Стародубцев, И.И. Российско-турецкое многоплановое энергетическое сотрудничество: [Электронный ресурс] / Сайт институт Ближнего Востока. - 13 февраля, 2009. URL: http://www.iimes.ru/?p=8134
[26] Murinson, A. Azerbaijan–Turkey–Israel Relations: The Energy Factor // Middle East Review of International Affairs. – 2008. № 3, –pp. 47-64.

enerji təhlükəsizliyi məsələlərinə toxunmuşdur.[27] E.Progonati və F.Qəşəmlinin birgə müəllifliyi ilə dərc edilmiş məqalədə Türkiyə ilə Azərbaycan arasında münasibətlər enerji geosiyasəti baxımından dəyərləndirilmişdir.[28] J.Roberts Türkiyəni Rusiya, Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərqin Avropaya açılan enerji qapısı kimi xarakterizə etmiş, enerji tranziti ilə təhlükəsizlik problemləri arasında əlaqəni müəyyənləşdirməyə çalışmışdır.[29] Qeyd olunanlardan əlavə xarici ölkə tədqiqatçılarından R.L.Busby[30], R.Kolb[31] kimi müəlliflərin əsərləri də tədqiqata cəlb olunmuşdur.

Tədqiqatların mənbə bazasının mühüm bir hissəsini OPEC, Beynəlxalq Enerji Agentliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq təşkilatların, BP, Qazprom, BOTAŞ, SOCAR kimi milli və transmilli şirkətlərin rəsmi internet saytlarından əldə olunmuş sənəd və statistik materiallar təşkil edir.

**Tədqiqatın obyekti və predmetini** mövzunun aktuallığı və onun siyasi nəzəriyyə elmi çərçivəsində qoyuluşu müəyyən edir. Belə ki, əgər mövzu ilə bağlı yazılmış digər tədqiqat əsərlərində tədqiqatın obyektini enerji sahəsində Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələr təşkil edirdisə, təqdim edilən bu dissertasiya işində obyekt bu enerji sahəsində uzun illər inkişaf etdirilmiş əlaqələr və əməkdaşlıq nəticəsində formalaşmış modeldir. Tədqiqatın predmeti isə bu modelin formalaşması prosesi, xarakterik xüsusiyyətləri, digər dövlətlər arasında enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün presedent təşkil edə biləcək cəhətləridir.

---

[27] Winrow, G. Geopoliticis and Energy Security in the Wider Black Sea Region // Southeast European and Blacksea Studies. -2007, June. №7(2), –p.217-235.
[28] Progonati, E., Gashamlı, F. Türkiye ile Azerbaycan Arasındaki İlişkilerinin Enerji Jeopolitiği // Journal of Current Researches on Business and Economics, -2021. № 11/1, –pp.73-92.
[29] Roberts, J. The Turkish gate: Energy Transit and Security Issues: [Elektron resurs] / Turkish Policy Quarterly, Vol. 3, № 4, –February 5, 2005. URL: http://turkishpolicy.com/article/121/the-turkish-gate-energy-transit-and-security-issues-winter-2004. -30 p.
[30] Busby, R. L. Natural Gas in Nontechnical Language / R.LBusby. - Oklohama: Pennwell Publishing, -1999. -170 p.
[31] Kolb, R.W. The Natural Gas Revolution: At The Pivot of the World’s Energy Future / R.Kolb. –New Jersey: Pearson Publishing, -2014. –280 p.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat aparılarkən qarşıya qoyulan başlıca məqsəd enerji təhlükəsizliyinin təmin olunmasının Azərbaycan-Türkiyə modelinin tədqiqidir. Bunun üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Enerji təhlükəsizliyinin konseptual əsaslarının bu məsələyə nəzəri yanaşmaların və tarixi inkişaf meyillərinin tədqiqi;
- Dünyada enerji təhlükəsizliyinin təmin olunmasında qlobal trendlərin və bu məqsədlə yaradılmış əməkdaşlıq modellərinin xarakterik xüsusiyyətlərinin təhlili;
- Hazırki şəraitdə enerji ixracatçısı olan ölkələrin enerji təhlükəsizliyi problemlərinin üzə çıxarılması və onların birgə fəaliyyət mexanizmlərinin effektivliyinin qiymətləndirilməsi;
- Beynəlxalq və regional proseslər fonunda idxalatçı ölkələrinin enerji təhlükəsizliyinə başlıca təhdidlərin müəyyənləşdirilməsi, bu təhdidlərin qarşısının alınması üçün yaradılmış əməkdaşlıq modellərinin xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- Enerji sahəsində əməkdaşlığın Azərbaycan-Türkiyə modelinin xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu modellə digər dövlətlər arasında mövcud olmuş və olan modellərlə müqayisəli təhlilinin aparılması;
- Türkiyə və Azərbaycan arasında əməkdaşlığın iqtisadi aspektlərinin siyasi və ideoloji aspektlərdən təcrid olunmuş şəkildə təhlil edilməsi, eyni zamanda onlar arasında qarşılıqlı əlaqə baxımından qiymətləndirilməsi;
- Siyasi nəzəriyyə elminin xüsusiyyətlərinə uyğun olaraq bu əməkdaşlıq modelinin gələcək inkişaf və tətbiq istiqamətlərinin proqnozlaşdırılması.
- Türkiyə Cümhuriyyətində enerji infrastrukturunun inkişafında Azərbaycan Respublikasının yeri və rolunun tədqiqi;
- Azərbaycan-Türkiyə əməkdaşllıq modelinin Avropanın və qonşu dövlətlərin enerji təhlükəsizliyi baxımından daşıdığı əhəmiyyətin konkret faktların və statistik göstəricilərin köməyi ilə öyrənilməsi;
- Azərbaycan-Türkiyə enerji əməkdaşlığının Avropanın gələcək enerji təhlükəsizliyi üçün əhəmiyyətinin proqnozlaşdırılması.

**Tədqiqat metodları** – Siyasi nəzəriyyənin kontraktualist, əksetdirici tarazlıq, düşüncə təcrübələri və ideoloji təhlil metodlarından istifadə edilmişdir. Məlum olduğu kimi kontraktualist yanaşma hesab edir ki, insanın irrasionallığına görə cəmiyyət öz rifahını qoruyacaq bir hökumət seçməli və razılaşmalar vasitəsilə çoxluq tərəfindən məcburi və dəstəklənən normalar müəyyən etməlidir. Bu metod vasitəsilə enerji sahəsində əməkdaşlıq və sosial rifahı qorumağı qarşıya məqsəd qoymuş hökumətlərin daxili siyasi fəaliyyəti arasında əlaqənin məzmunu aydınlaşdırılmışdır. Əksetdirici tarazlıq metodu vasitəsi ilə əməkdaşlıq modelinin effektivliyi üçün ümumi prinsiplər və xüsusi mülahizələr arasında qarşılıqlı tarazlığın necə qorunduğu öyrənilmişdir. Bəlli olduğu kimi, siyasi nəzəriyyədə əgər hər hansı modeldən bəhs edilirsə bunun özü tarazlıq və (və ya) uyğunluq vəziyyətidir. Bu baxımdan dissertasiya işində ən geniş tətbiq olunan metod məhz əksetdirici tarazlıq metodudur.

Qeyd olunan xüsusi metodlarla yanaşı tədqiqatların aparılması zamanı müqayisəli təhlil, kontent və ivent analiz, sintez, sistemli yanaşma kimi ümumi tədqiqat metodlarından da istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:**

- Enerji təhlükəsizliyinin təmin olunması sahəsində Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq sadəcə olaraq müvəqqəti maraqlara əsaslanan əməkdaşlıq deyil, xüsusi bir modeldir. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdiyi ilk illərdən etibarən iki ölkə arasında enerji sahəsində də bir sıra müqavilələr imzalansa və əməkdaşlığın qurulması üçün bəzi addımlar atılsa da bu əməkdaşlığın xüsusi bir modelə çevrilməsi üçün konseptual əsaslar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin prezidentliyi dövründə müəyyənləşdirilmişdir.
- Enerji təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlıq modelinin bir sıra cəhətləri nəzərə alınmaqla dünyanın digər bölgələrində analoji situasiyalarda tətbiq edilməsi mümkündür. Bu modelin tətbiq edilməsi təcrübəsini paylaşmaq üçün Azərbaycan və Türkiyə həmin bölgələrdə

yerləşən ölkələrlə əməkdaşlığı sıxlaşdıra və qarşıqlı faydalı əməkdaşlıq qura bilərlər.

- Azərbaycan və Türkiyə arasında formalaşan enerji təhlükəsizliyi əməkdaşlıq modeli, regional və qlobal enerji bazarlarında yeni, təhlükəsiz və etibarlı çıxış yolları təklif edərək, həm Cənubi Qafqaz regionunun, həm də Qara Dəniz hövzəsinin enerji təhlükəsizliyinə mühüm töhfələr verir.
- Azərbaycanın enerji ehtiyatlarının zənginliyi və etibarlı tərəfdaş olaraq mövqeyi, Türkiyənin enerji təhlükəsizliyinin təmin olunmasında strateji əhəmiyyət daşıyır. Bu əməkdaşlıq Avropa İttifaqı ölkələri üçün də kritik əhəmiyyət kəsb edir, çünki enerji ehtiyatlarının mənbəyi olan ölkələrin etibarlılığı önəmlidir.
- Türkiyə və Azərbaycanın enerji resurslarını dünya bazarlarına daşıyan əsas tranzit ölkələr olaraq rolu, həm Avropa İttifaqı, həm də digər dünya gücləri üçün strateji əhəmiyyətlidir. Həmçinin, Xəzər hövzəsinin enerji resurslarının alternativ yolla daşınması, bu iki ölkənin beynəlxalq enerji siyasətindəki mövqeyini gücləndirir.
- Azərbaycan və Türkiyə arasında enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində əməkdaşlıq, yaşıl enerji sahəsində də dərinləşməkdədir. Hər iki ölkə, bərpa olunan enerji mənbələrindən, xüsusilə günəş və külək enerjisindən istifadəni artırmaq məqsədilə birgə layihələr həyata keçirir. Bu əməkdaşlıq həm regionda enerji təchizatını şaxələndirmək, həm də Aİ-nin yaşıl enerji strategiyasına uyğun fəaliyyət göstərmək üçün vacibdir. Azərbaycan-Türkiyə əməkdaşlığının yaşıl enerji sahəsindəki perspektivləri, bu iki ölkənin regional enerji bazarına təchizat təmin etməkdəki güclü mövqeləri və bərpa olunan enerji sahəsindəki investisiyaların artması ilə daha da güclənəcəkdir. Bu əməkdaşlıq, həmçinin enerji istehsalında karbon emissiyalarının azaldılmasına, həm də yeni iqtisadi imkanların yaradılmasına töhfə verir.

**Tədqiqatın elmi yeniliyi** başlıca olaraq onunla müəyyənləşir ki, mövzu ilk dəfə olaraq siyasi nəzəriyyə kontekstində tədqiq edilmiş,

iki ölkə arasında enerji təhlükəsizliyin təmin olunması sahəsində əməkdaşlıq ayrıca bir model olaraq qiymətləndirilmişdir. Müəyyən edilmişdir ki, enerji təhlükəsizliyi sahəsində bu əməkdaşlıq modeli siyasi sahədə əlaqələrin hazırki şəraitdə sıxlaşmasına təkan verir.

- Dissertasiya işində ilk dəfə olaraq Azərbaycan və Türkiyə arasında enerji sahəsində formalaşan əməkdaşlıq yalnız ayrı-ayrı layihələr çərçivəsində deyil, vahid və sistemli bir model kimi nəzərdən keçirilir. Bu modelin struktur elementləri, funksional mexanizmləri və regional təsir dairəsi elmi əsaslarla analiz olunur.

- İşdə Azərbaycan–Türkiyə enerji əməkdaşlığı əsasında formalaşdırılmış enerji təhlükəsizliyi modelinin konseptual çərçivəsi hazırlanır və bu model vasitəsilə digər regionlar üçün də tətbiq oluna biləcək strateji əməkdaşlıq nümunəsi təklif olunur.

- enerji sahəsində Azərbaycan və Türkiyə arasında mövcud olan əla əlaqələr sadəcə olaraq dövlətlərarası əməkdaşlıq deyil, xüsusi bir model olduğu sübut edilmişdir.
- bu əməkdaşlıq modelinin xarakterik xüsusiyyətləri müəyyən edilmişdir.
- modelin dünyanın digər öllkləri arasında tətbiq oluma imkanları siyasi nəzəri baxımından qiymətləndirilmişdir.
- əməkdaşlıq modelinin gələcək perspektivləri proqnozlaşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aparılan tədqiqat və əldə olunan elmi nəticələr həm nəzəri baxımdan, həm də praktiki baxımdan əhəmiyyətlidir. Dissertasiya işində gəlinən nəticələr, irəli sürülən və faktlarla əsaslandırılan elmi müddəalardan siyasi nəzəriyyə elmində modelləşdirməyə dair yazılan tədqiqat əsərlərində istifadə edilə bilər. Bununla yanaşı enerji təhlükəsizliyinin təmin olunması sahəsində bu əməkdaşlıq modelinin digər yönlərinin müəyyən edilməsi üçün tədqiqat işlərinin aparılması, elmi seminar, diskussiya, və konfransların keçirilməsi, ümumiləşdirilmiş əsərlərin, dərslik və dərs vəsaitlərinin yazılması üçün bu dissertasiya işindən yararlanmaq mümkündür.

**Aprobasiyası və tətbiqi.** İrəli sürülən elmi müddəalar, gəlinən nəticələrlə bağlı Azərbaycan Respublikasında və xarici ölkələrdə keçirilən beynəlxalq və respublika əhəmiyyətli simpozium və konfranslarda məruzələr edilmiş, işdə irəli sürülən mülahizələr

elmi toplantılarda müzakirəyə çıxarılmış, Azərbaycan və xarici ölkələrin nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə elmi məqalələr dərc etdirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Sosial fənlər" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın işinin həcmi.** Dissertasiya işi giriş, 7 paraqrafa bölünmüş üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr hissəsindən ibarətdir. İş ümumilikdə 268141 işarədən ibarətdir. Müvafiq olaraq giriş hissə 20159, I fəsil 105060, II fəsil 52619, III fəsil 79215, işin Nəticə hissəsi 11088 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Enerji təhlükəsizliyi probleminə nəzəri-konseptual yanaşmalar ixracatçi və idxalatçi ölkələrin enerji təhlükəsizliyi kontekstində"** adlanan ilk fəslində müasir dünyada enerji təhlükəsizliyinin qlobal təhlükəsizliyinin niyə mühüm elementlərindən birinə çevrilməsi siyasi nəzəriyyə baxımından qiymətləndirilmişdir. Enerji təhlükəsizliyinin konseptual əsasları, ona nəzəri yanaşmalar nəzərdən keçirilmişdir. Enerji əlçatanlığı məsələsinin insan inkişafının ilkin mərhələlərindən bəri mövcud olmasına baxmayaraq, enerji təhlükəsizliyi anlayışı həm enerji, həm də təhlükəsizlik tədqiqatlarında uzun müddət diqqətdən kənarda qalmışdır. Enerji təhlükəsizliyinin konseptuallaşdırılması məsələsi dünya elmində daha çox XX əsrin ikinci yarısından etibarən meydana çıxmış, 70-ci illərin ikinci yarısında da isə populyarlaşmışdır.[32] Çoxsaylı ədəbiyyatların təhlili nəticəsində enerji təhlükəsizliyinin konseptuallaşdırılmasına iki ümumi yanaşmanı fərqləndirmək mümkündür:

1) Enerji təchizatının təhlükəsizliyinə diqqət yetirən yanaşmalar;
2) Enerji təhlükəsizliyinin müxtəlif aspektlərini kəmiyyət (indekslər və göstəricilər) əsasında izah edən yanaşmalar.

Enerji təhlükəsizliyi anlayışı və bu təhlükəsizliyə yönələn təhdidlərin dünya ölkələri üzrə necə bir-birindən fərqləndiyi müəyyənləşdirilmişdir. Enerji sahəsində əməkdaşlığın Azərbaycan-Türkiyə modelinin əhəmiyyətini başa düşmək, onu digər əməkdaşlıq modellərindən fərqləndirmək üçün enerji təhlükəsizliyi və əməkdaşlıq sahəsində dünyadakı digər təcrübələr təhlil olunmuşdur. Ayrı-ayrı ölkələrin enerji siyasətlərinin, enerji təhlükəsizliyinin və enerji geosiyasətinin paralel təhlili geosiyasət ilə enerji arasında mürəkkəb əlaqənin olduğunu müəyyən etməyə imkan verir. Belə bir qənaətə gəlmək olur ki, dünyada bir sıra dəyişikliklərin baş verməsinə baxmayaraq enerji resursları və enerji təhlükəsizliyi xarici siyasətdə

---

[32] Augutis, J. and etc. Sustainable Development and Energy Security Level after Ignalina NPP Shutdown / J.Augutis, R. Krikštolaitis, S. Pečiulytė, İ. Konstantinavičiūtė // –Vilnius: Technological and Economic Development of Economy, - 2011. № 17, – pp. 5-21.

əhəmiyyətini itirməmişdir. Bu gün enerji geosiyasətinin inkişafı neft və qaz kəmərləri, yaşıl enerji resursları, bu resurslarının müxtəlifliyi və dünya bazarlarında satılması strategiyaları fonunda formalaşmaqdadır. Alternativ enerji mənbələrindən əldə olunan enerjinin karbohidrogen tərkibli yanacaq növləri ilə müqayisədə demək olar ki, eyni maya dəyərə başa gəlməsi onlara olan marağın sürətlə artmasına səbəb olur.[33] Bu baxımdan Azərbaycan və Türkiyə enerji sahəsində əməkdaşlıq modelinin gələcək inkişaf istiqamətlərindən birinin məhz alternativ enerji mənbələrindən birgə istifadə və onların tranzit daşınması sahəsində əməkdaşlıq ola bilər.

Bu fəsildə həmçinin müasir mərhələdə ixracatçı və idxalatçı ölkələrin enerji təhlükəsizliyi problemlərinə toxunulmuş, onların bu sahədə formalaşdırdıqları modellərin müsbət cəhətləri və çatışmazlıqları siyasi nəzəri baxımdan təhlil olunmuşdur. Müəyyən edilmişdir ki, həm zəngin enerji potensialına sahib olan ölkələr, həm də enerji istehlakçısı olan ölkələr təhlükəsizliklərini təmin etməkdən ötrü daim müxtəlif əməkdaşlıq modelləri formalaşdırmağa çalışmışlar. Əksər hallarda bu cür modellər istehlakçı və istehsalçı dövlətlərin ayrı-ayrılıqda qruplaşması, təşkilatlanması şəklində baş tutmuşdur.

Hazırda bu cür əməkdaşlıq modellərinin formalaşmasına ən müxtəlif amillər təsir göstərir. Son illərdə dünyada enerji sahəsində əməkdaşlıq coğrafiyasının dəyişməsinə koronavirus pandemiyası və 2022-ci ildə başlamış Rusiya-Ukrayna müharibəsi əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Həmin müharibə xüsusən Avropa ölkələrinin bəzən geosiyasi maraqlar naminə enerji sahəsində riskə gedə biləcəklərini göstərmişdir. Hətta bu çərçivədə Rusiya ilə uzun illər enerji sahəsində əməkdaşlıq qurmuş və bu əməkdaşlığı dövlət maraqları üzərindən inkişaf etdirmiş bir sıra Avropa dövlətləri bundan tamamilə imtina etmişlər. 2022-ci ilin martında razılaşdırılmış Versal Bəyannaməsi ilə Avropa İttifaqına üzv olan 27 dövlətin liderləri Rusiyanın karbohidrogen resurslarından asılılığını mümkün qədər tez aradan qaldırılması barədə razılığa gəlmişdilər. 30-31 may 2022-ci il tarixlərində Avropa ölkələri

[33] Komor, P. Renewable Energy Policy / P.Komor. – New York: Universe Publishing, –2004. –p. 1.

2022-ci ilin sonuna qədər Rusiyadan neft idxalının demək olar ki, 90%-ə qədərinə qadağa qoyulması barədə razılıq əldə etmişdilər.[34]

Təhlillər enerji bazarında yeni dövrün trendlərinə uyğun olaraq bərpa olunan enerji resursları ilə bağlı, eləcə də nüvə enerjisinin istehsalı ilə bağlı birgə əməkdaşlığın da diqqət mərkəzində olduğunu göstərməkdədir. Ayrı-ayrı əməkdaşlıq modellərinin öyrənilməsi göstərir ki, onlar əksər hallarda sadəcə olaraq iqtisadi maraqlara söykənir. Bu baxımdan dəyişən geosiyasi şərtlərə və maraqlara görə davamlı olmur. Tədqiqatın əsas obyekti olaraq müəyyənləşdirilən enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın Azərbaycan-Türkiyə modeli isə bu baxımdan fərqlənir.

II Fəsil **“Azərbaycan-Türkiyə enerji əməkdaşlığı və təhlükəsizliyi modelinin formalaşması və xarakterik xüsusiyyətləri”** adlanır. Məlumdur ki, uzun illər ərzində formalaşmış Azərbaycan-Türkiyə əməkdaşlığı hazırda dəyişən dünya şərtlərində də böyük strateji əhəmiyyətə malikdir.[35] İkinci fəslin ilk paraqrafında modelin başlıca xüsusiyyətləri, Türkiyə Cümhuriyyəti üçün əhəmiyyəti təhlil edilmişdir. Müəyyən olunmuşdur ki, Azərbaycan və Türkiyə arasında enerji sahəsində əməkdaşlıq modelinin əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Təcrübə mübadiləsi, texniki imkanların birləşdirilməsi və paylaşılması;
2. İki ölkə arasındakı əməkdaşlıq, qarşılıqlı fayda və dəstək üzərində formalaşması;
3. Bu əməkdaşlığın enerji təminatının və ixracatının diversifikasiyasını hədəfləməsi;
4. İki ölkənin neft və təbii qazın ixrac-idxalı ilə yanaşı enerji sahəsində əməkdaşlıqlarını karbohidrogen resurslarının emalı, hidroenerji və bərpaolunan enerji mənbələrindən istifadə sahəsində də şaxələndirmələri;

---

[34] Impact of Russia's invasion of Ukraine on the markets: EU response: [Elektron resurs] / The site of the EU Council. –March 31, 2023. URL: www.consilium.europa.eu/en/policies/eu-response-ukraine-invasion/impact-of-russia-s-invasion-of-ukraine-on-the-markets-eu-response/#:~:text=The%20price%20of%20 fuels%20in,has%20further%20impacted%20the%20situation.

[35] Əhmədov, E.İ. Müasir geosiyasi şəraitdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı // -Bakı: Geostrategiya, -2012. -№6 (10). -s. 33-37.

5. Bu modelin sadəcə olaraq iki dövlətin mənafeləri əsasında deyil, həm istehlakçı, həm də istehsalçı ölkələri təmsil edən güc mərkəzlərinin maraqları əsasında formalaşması və onların da mənafelərinə cavab verməsi və s.

Fəsildə həmçinin Türkiyə Cümhuriyyətində enerji infrastrukturunun inkişafında Azərbaycan Respublikasının yeri və rolu da araşdırılmışdır. Məlumdur ki, həm Türkiyənin enerji resurslarına olan ehtiyacını ödəmək, həm də Azərbaycanın neft və qaz ehtiyatlarını Avropa ölkələrinə nəql etmək üçün Azərbaycan və Türkiyə bir çox irimiqyaslı layihələri həyata keçirmiş, yeni –yeni kəmərlər çəkmişlər. Cənubi Qafqaz Qaz (CQQK) kəməri, Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri, Trans-Anadolu Qaz Kəməri (TANAP), Trans-Adriatik Kəməri (TAP), Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri təkcə iki ölkənin deyil, ümumilikdə Qafqaz, Anadolu və bir sıra Avropa ölkələrinin iqtisadi və enerji təhlükəsizliyində çox vacib rol oynamışdır. Təkcə onu qeyd etmək lazımdır ki, Cənub Qaz Dəhlizi Avropa üçün qısa müddət ərzində Rusiya, Norveç və Şimali Afrikada mövcud enerji kəmərlərinə alternativ, əlavə tədarük dəhlizinə çevrilmişdir.[36] Müəyyən edilmişdir ki, enerji sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığının mühüm istiqamətlərindən birini bu sahəyə yatırılan qarşılıqlı sərmayələr təşkil edir. Əgər Azərbaycanın müstəqilliyini yeni bərpa etdiyi ilk illərdə əsasən Türkiyə tərəfindən Azərbaycanın iqtisadiyyata, eləcə də enerji sektoruna investisiyalar yatırılırdısa, hazırda bu proses qarşılıqlı şəkildə inkişaf edir. Yəni təkcə Türkiyə Azərbaycanın iqtisadiyyatına və enerji sektoruna deyil, Azərbaycan da Türkiyənin iqtisadiyyatına və enerji sektoruna investisiyalar yatırır. Hələ 2011-ci ildə açıqlanan məlumatlarda qeyd olunurdu ki, Türkiyədə Azərbaycan investisiyalarının həcmi 4,5 milyard dollar təşkil edir və 850-ə yaxın Azərbaycan şirkəti fəaliyyət göstərir. [37] 2022-ci ilin sonunda Azərbaycan Respublikasının

---

[36] Kontakos, P., Zhelyazkova, V. Energy Infrastructure Projects of Common Interest in the SEE, Turkey, and Eastern Mediterranean and Their Investment Challenges // Energy Systems and Management, –2015. –p. 266.

[37] Azərbaycan Türkiyə iqtisadiyyatında investisiyaların həcminə görə birinci yeri tutur - SOCAR-Turcas: [Elektron resurs]/ Trend İA. - 28 noyabr, 2011. URL: https://az.trend.az/business/economy/1962448.html

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəsmilərinin açıqladığı məlumatlara görə, həmin tarixə qədər Azərbaycanın Türkiyə iqtisadiyyatına qoyduğu sərmayələrin həcmi 19,5 milyard ABŞ dolları, Türkiyənin Azərbaycan iqtisadiyyatına yatırımlarının həcmi isə 12 milyard ABŞ dolları olmuşdur. Başqa sözlə desək faktiki olaraq Azərbaycanın Türkiyəyə yatırdığı investisiyaların həcmi 7,5 milyard dollar artıq olmuşdur.[38]

Aparılan təhlillər, mötəbər mənbələr, statistik materialları və digər qaynaqlar əsasında aparılan tədqiqatlar enerji təhlükəsizliyi sahəsində Azərbaycan və Türkiyə arasındakı əməkdaşlığı xüsusi modeli kimi xarakterizə etməyə imkan verir. Bu modelin fərqləndirici xüsusiyyətlərindən biri onun enerji təminatının və ixracatının şaxələndirilməsini hədəfləyən ölkələr arasında formalaşmasıdır. Enerji təhlükəsizliyi sahəsində Azərbaycan-Türkiyə modeli təkcə iki dövlətin mənafeləri əsasında deyil, həm istehlakçı, həm də istehsalçı ölkələri təmsil edən güc mərkəzlərinin maraqları əsasında formalaşması və onların da mənafelərinə cavab verməsidir.

Azərbaycanın karbohidrogen resursları Türkiyənin enerji təhlükəsizliyində xüsusi yerə malikdir. Bu xüsusilə özünü iki cəhətdən açıq şəkildə göstərməkdədir. Birincisi Azərbaycan Türkiyə üçün mühüm neft və xüsusilə təbii qaz tədarükçüsüdür, perspektiv planda isə həm də elektrik enerjisi tədarükçülərindən birinə çevrilmə potensialına sahibidir. Digər tərəfdən Türkiyə Azərbaycan neftinin və təbii qazının dünya bazarlarına daşınmasında əsas tranzit ölkə kimi kifayət qədər yüksək gəlirlər əldə edir. Tranzit ölkə kimi Türkiyənin ABŞ başda olmaqla enerjiyə ehtiyac duyan digər qərb dövlətləri üçün də əhəmiyyəti artır.

Enerji sahəsində iki ölkə əməkdaşlığının mühüm istiqamətlərindən birini bu sahəyə yatırılan qarşılıqlı sərmayələr təşkil edir. Xüsusən XXI əsrin əvvəllərindən etibarən Azərbaycan Respublikası investisiyaları qəbul edən ölkədən investor ölkəyə çevrilmişdir. Azərbaycanın sərmayəsi hesabına yaradılan,

---

[38] Azərbaycan və Türkiyənin qarşılıqlı investisiya qoyuluşu açıqlanıb: [Elektron resurs] / Report. - 2 dekabr, 2022. URL: https://report.az/biznes-xeberleri/azerbaycan-ve-turkiyenin-qarsiliqli-investisiya-qoyulusu-aciqlanib/.

səmərəliliyin və davamlı inkişafın əsas elementi olan texnologiyanı bütün fəaliyyət proseslərinə inteqrasiya edən və rəqəmsal texnoloji müəssisə kimi fəaliyyət göstərən STAR neft emalı zavodu, bu sahədəki göstəricilərinə görə nəinki Türkiyənin, hətta Avropanın ən müasir neft emalı zavodları arasında yer alır.[39]

**"Azərbaycan-Türkiyə əməkdaşlıq modelinin Avropanın enerji təhlükəsizliyi üçün əhəmiyyəti"** adlanan üçüncü fəsildə həm Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin rolu təhlil edilmiş, həm də bu əməkdaşlıq modelinin Avropanın gələcək enerji təhlükəsizliyi üçün əhəmiyyəti proqnozlaşdırılmışdır. Bu fəsildə diqqət yetirilən üüncü başlıca istiqamətd Avropada yaşıl enerjiyə keçid çağırışları, enerji təhlükəsizliyi sahəsində Azərbaycan-Türkiyə əməkdaşlıq modelinin yaşıl perspektivləri ilə bağlıdır.

Yaxın Şərq, Şimali Afrika, Şərqi Avropa və bəzi digər bölgələrdə baş verən təlatümlü hadisələr Aİ ölkələrini daim yeni enerji daşıyıcıları mənbələrinin axtarmağa, özündə daha az risk daşıyan layihələrin reallaşdırılmasına sövq edir. Bu baxımdan Xəzər hövzəsinin, xüsusilə Azərbaycan Respublikasının enerji ehtiyatları Avropa İttifaqı ölkələri üçün cəlbedicidir. Eyni zamanda Azərbaycanın və Türkiyənin Mərkəzi Asiyanın enerji ehtiyatlarının daha ucuz formada Avropa ölkələrinə ixrac edilməsi üçün əlverişli tranzit mövqeyi də bu ölkələrin Avropanın enerji təhlükəsizliyində rolunu artırır. Bunu Qazaxıstan və Türkmənistan kimi ölkələrin neftinin BTC vasitəsilə nəql edilməsi kimi artıq məlum olan faktlar da sübut edir.[40]

Enerji sahəsində əməkdaşlığın Azərbaycan-Türkiyə modeli iki ölkə ilə yanaşı, həm də Avropa ölkələrinin enerji təhlükəsizliklərini təmin etmə istəkləri fonunda formalaşmışdır. Hazırki şəraitdə bu modelin sayəsində gerçəkləşdirilmiş layihələr bir sıra Avropa

---

[39] SOCAR Türkiye. Sürdürebilirlik raporu. 2019-2020 / – İzmir: Socar, – 2021, Eylül, –s. 9, 50.

[40] Bal, H., Alper, A. Bakü-Tiflis-Ceyhan Petrol Boru Hattı ve Türkiye Ekonomisine Etkileri // – Çankırı: Ç.Ü. Sosyal Bilimler Enstitüsü Dergisi, –2010. Cilt 19, № 3, –s. 353.

ölkələrinin enerji təhlükəsizliklərinin qarantına çevrilmişdir.[41] Xüsusən Avropa İttifaqının enerji təhlükəsizlikləri ilə bağlı həyati maraqları olduğu üçün enerji sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığının uğurlu inkişafında bu ölkələr də maraqlı olmuşlar. Lakin əməkdaşlıq modelinin uğurlu olmasını sadəcə bu amillə də bağlamaq düzgün deyildir. Aparılan təhlillərdən də aydın olduğu kimi, Azərbaycan Respublikası ilə müqayisədə həm daha geniş geostrateji təsir imkanlarına (İsrail, Misir və s.), həm daha çox enerji ehtiyatlarına (İran) sahib olan bir çox ölkələr digər ölkələrlə əməkdaşlıq modelləri formalaşdırmağa çalışsalar da tam uğur əldə edə bilməmişlər. Deməli, enerji sahəsində əməkdaşlıq modellərinin uğurlu olmasının səbəbini təkcə enerji potensialı və geostrateji təsir imkanları ilə bağlamaq olmaz, bu həm də ölkələrin siyasi rəhbərliklərinin geosiyasi prosesləri düzgün dəyərləndirməsi, qətiyyətli siyasi iradəsi ilə birbaşa bağlı olan məsələdir.

Türkiyə ilə Azərbaycan arasındakı enerji əməkdaşlığı Avropanın daha ucuz başa gələn nəqliyyat layihələrinə qoşulması imkanlarını xeyli artırır. Eyni zamanda bu əməkdaşlıq həm Türkiyəni, həm Azərbaycanı Yaxın Şərq, Mərkəzi Asiya və Qafqaz regionunda gerçəkləşdirilən qlobal iqtisadi və sosial layihələrin onurğa sütununa çevirir. Türkiyə və Azərbaycan əməkdaşlığının perspektivlərini artıran amillərdən biri də Mərkəzi Asiya ölkələrinin, xüsusən Türkmənistanın TANAP və TAP layihələrinə qoşulma perspektivləridir.[42]

Təhlillər sübut edir ki, Aİ ölkələrinin yaşıl enerji strategiyası hədəfləri perspektivdə də Türkiyə və Azərbaycanın bu sahədə əməkdaşlığını zəruri edir. Azərbaycanın yaşıl enerji istehsal etmək üçün də böyük potensial imkanları vardır, bu potensialın reallaşdırılması üçün cəhdlər getdikcə daha çox artmaqdadır. 2020-ci il müharibəsindən, ərazilərin işğaldan azad etməsindən sonra bu məsələ hər zaman Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin diqqət mərkəzində olmuşdur. Prezident çıxışlarında

---

[41] Axundova, L.R. Avropanın enerji təminatının qarantına çevrilən Cənubi Qafqaz Respublikası - Azərbaycan // - Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, -2022. № 1, - s. 76-80.

[42] Türkmen gazı TANAP`a bağlanıyor: [Elektronik kaynak]/ Sabah gazetesi. -29 mayıs, 2014. URL: http://www.sabah.com.tr/Ekonomi/2014/05/29/turkmen-gazi-tanapa-baglaniyor

dəfələrlə vurğulamışdır ki, azad olunmuş ərazilərdə enerji istehsalı üçün nəhəng potensial vardır.[43] Aparılan təhlillər göstərir ki, Laçında və Kəlbəcərdə külək enerjisi üçün, Cəbrayılda və Zəngilanda günəş və hidro enerji üçün nəhəng potensial vardır.

Bu əməkdaşlığın bazasında məhsuldar qarşılıqlı əlaqələrin gerçəkləşdirilməsi üçün mühüm zəmin yaranır. Bu zəmin isə yerli iqtisadi layihələrin tətbiqində, qeyri-enerji sektorunda iqtisadi proqramların həyata keçirilməsində, Qafqazda və Yaxın Şərq regionunda siyasi stabilliyin qorunmasında, münaqişələrin məhsuldar dialoqa əsaslanaraq həll edilməsində, eyni zamanda həm Azərbaycan və Türkiyə arasında, həm də başqa türk dövlətləri ilə də iqtisadi, siyasi inteqrasiyanın gerçəkləşməsində mühüm rol oynayır və gələcəkdə də oynayacaqdır.

Dissertasiya işinin **Nəticə** hissəsində gəlinən qənaətlər ümumiləşdirilmişdir. Gəlinən nəticələrdən biri ondan ibarətdir ki, dünyada enerji sahəsində əməkdaşlıq coğrafiyasının dəyişməsinə koronavirus pandemiyası, 2022-ci ildə başlamış Rusiya-Ukrayna müharibəsi əhəmiyyətli dərəcədə təsir göstərmişdir. 2022-ci ildə Rusiya ilə Ukrayna arasında başlayan müharibə xüsusən Avropa ölkələrinin bəzən geosiyasi maraqlar naminə enerji sahəsində riskə gedə biləcəklərini göstərmişdir. Ayrı-ayrı əməkdaşlıq modellərinin öyrənilməsi göstərir ki, onlar əksər hallarda sadəcə olaraq iqtisadi maraqlara söykənir. Bu baxımdan dəyişən geosiyasi şərtlərə və maraqlara görə davamlı olmur.

Azərbaycan-Türkiyə modeli isə geosiyasi və geoiqtisadi şərtlərin dəyişkənliyinə qarşı daha güclü dayanıqlılığa malikdir. Enerji sahəsində əməkdaşlığın xüsusi bir modelə çevrilməsi üçün konseptual əsaslar Heydər Əliyevin prezidentliyi dövründə müəyyənləşmişdir. Bu model təkcə Azərbaycan və Türkiyənin deyil, bu dövlətlərin yerləşdiyi region və subregionların enerji və iqtisadi təhlükəsizliyinə töhfələr verir. Xəzər hövzəsinin neft-qaz istehsalçısı olan dövlətlər üçün dünya bazarlarına yeni, təhlükəsiz, etibarlı və alternativ çıxış imkanları təqdim edir, Cənubi Qafqaz regionunun ümumi inkişafına təsir edir, tranzit ölkəsi kimi Gürcüstanın iqtisadi

[43] Kəlbizadə, E. TDT-nin dünya geosiyasətində rolu artır // Xalq qəzeti, -2024, 17 noyabr. –s. 7.

gəlirlər və təhlükəsizlik təminatı qazanmasına şərait yaradır, Qara dəniz hövzəsi ölkələri üçün yeni imkanlar açır, Avropa ölkələrinin enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır.

Azərbaycan Türkiyənin enerji təhlükəsizliyində tədarükçü ölkələrin şaxələndirilməsi baxımından əhəmiyyətlidir. Türkiyə Azərbaycan neftinin və təbii qazının dünya bazarlarına daşınmasında əsas tranzit ölkə mövqeyinə malikdir. Bu mövqeyi, Türkiyəyə həm ABŞ, həm də Aİ-nin enerji təhlükəsizliyi siyasətlərinə daxil olma imkanı verir. Deməli, Azərbaycan enerji ehtiyatları Türkiyənin strateji əhəmiyyətini artıran bir elementdir..

Enerji sahəsində iki ölkə əməkdaşlığının mühüm istiqamətlərindən birini bu sahəyə yatırılan qarşılıqlı sərmayələr təşkil edir. Xüsusən XXI əsrin əvvəllərindən etibarən Azərbaycan Respublikası investisiyaları qəbul edən ölkədən investor ölkəyə çevrilmişdir. Enerji təhlükəsizliyində Azərbaycan-Türkiyə modeli, son dövrlərdə, Azərbaycan Neft Şirkəti – SOCAR-ın Türkiyədə böyük layihələrə daxil olması və ən son Star neft emalı zavodunu fəaliyyətə keçirməsi ilə ilkin enerji resurslarına olan tələbatın təminat altına alınması çərçivəsini aşmış, Azərbaycan artıq yatırdığı sərmayələrlə Türkiyədə enerji resurslarının emalı sahəsində əsas investor dövlətlərdən birinə çevrilmişdir. Bu Türkiyənin yanacaq təhlükəsizliyini təminat altına almış, iqtisadi cəhətdən böyük fayda gətirmiş, ən əsası isə dövlətin xarici ticarət balansında mövcud olan kəsirin aradan qaldırılmasında böyük paya malik olmuşdur.

Azərbaycan-Türkiyə enerji əməkdaşlığının Avropanın gələcək enerji təhlükəsizliyi üçün əhəmiyyəti proqnozlaşdırılarkən aydın olur ki, onun perspektivlərini gücləndirən amillərdən biri də modelə üçüncü tərəflərin qoşulma potensialıdır. Buraya xüsusən, Mərkəzi Asiyanın türk dövlətləri aiddir. Xəzərin statusunun müəyyən edilməsi həmin regionun ölkələrinin modeldə iştirak etməsini reallığa çevirmiş, qarşıda duran maneələri aradan qaldırmışdır.

Aİ ölkələrinin enerji təhlükəsizliyi enerji qaynaqlarını təhlükəsiz, siyasi risklər olmadan, daha aşağı qiymətlərlə əldə etmək strategiyasını əldə rəhbər tutur. Bu baxımdan Türkiyə-Azərbaycan enerji əməkdaşlığının böyük önəmi vardır. Aİ ölkələrinin enerji strategiyası hədəfləri Türkiyə və Azərbaycanın enerji əməkdaşlığını

qaçılmaz hala çevirir, məhsuldar qarşılıqlı əlaqələrin gerçəkləşdirilməsi üçün mühüm zəmin yaranır.

Beləliklə, tədqiqatlar təhlil edilən əməkdaşlığın xüsusi bir model olduğunu sübut edir. Bu modelin xarakterik xüsusiyyətləri ilə bağlı əldə edilən nəticələri aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

İlk növbədə bu modelin əsas xüsusiyyəti, alternativ mənbələrin enerji idxalatçısı ölkələrin istifadəsinə təqdim etməklə, onların enerji təhlükəsizliyində, özündə heç bir təhdid faktoru daşımasıdır

Modelin ikinci mühüm xüsusiyyəti başda Rusiya olmaqla, enerji resurslarından idxalatçı dövlətlərə qarşı siyasi və ekspansionist məqsədlərlə istifadə edən dövlətlərin təhdidlərinə qarşı dövlətlər üçün mühüm özünütəminat alma vasitəsi olmasıdır.

Üçüncü xüsusiyyət Azərbaycan və Türkiyə arasında enerji əməkdaşlığının təkcə enerji idxalatçısı olan dövlətlərin deyil, bu enerji resurslarının daşınma güzərgahlarında yer alan dövlətlərin də enerji təhlükəsizliyinə, həmçinin iqtisadi inkişafına töhfə verməsidir.

Dördüncüsü, bu model təkcə iki dövlətin enerji təhlükəsizliyi sahəsində əməkdaşlığının şaxələnməsinə və dərinləşməsinə xidmət etmir, həmçinin özündə hər iki ölkənin həm Azərbaycan Respublikasının, həm də Türkiyə Cümhuriyyətinin müstəqilliyinin və suverenliyinin təminatı kimi mühüm məsələni ehtiva edir. Bu iki ölkəni müasir dünyanın yüksələn güc və cazibə mərkəzlərindən birinə çevirir.

Azərbaycan-Türkiyə enerji əməkdaşlığı, özündə həmçinin Xəzər hövzəsində yerləşən digər ölkələrin enerji ehtiyatlarının bu iki dövlətin yer aldığı layihələrə daxil edilməsi yolu ilə daşınmasını nəzərdə tutur. Beləliklə, bu əməkdaşlıq digər istehsalçı dövlətlərin də enerji təhlükəsizliyinə xidmət edən bir model kimi diqqəti cəlb edir. Belə bir missiya Rusiyadan enerji asılılığının qırılması üçün yollar axtaran Qərb dövlətləri kimi, Xəzər hövzəsi dövlətlərinin də diqqətini cəlb edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Avropanın enerji təminatının qarantına çevrilən Cənubi Qafqaz respublikası - Azərbaycan // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri, –2022. № 1, – s. 76-80.
2. Enerji təhlükəsizliyi beynəlxalq təhlükəsizliyin tərkib hissəsi kimi // – Bakı: Geostrategiya, – 2022. №2, – s. 41-45.
3. Enerji təhlükəsizliyi beynəlxalq təhlükəsizliyin tərkib hissəsi kimi // –Bakı: Sivilizasiya, –2022. Cild 11, № 2 (51), – s. 94-100.
4. Koronavirus pandemiyası və enerji təhlükəsizliyi: Asiya dövlətləri timsalında təhlili // –Bakı: Sivilizasiya, – 2022. Cild 11, № 3 (52), – s. 109-116.
5. Neft-qaz ixrac edən dövlətlərin enerji təhlükəsizliyi siyasəti // – Bakı: Qafqazşünaslıq jurnalı, – 2022. №1 (3), – s. 60-70.
6. Türkiyənin yanacaq tələbatının qarşılanmasında Azərbaycan enerji resurslarinin əhəmiyyəti // Latin America 4th international conference on Scientific researches, - Mexico: Akademi Kongre Dergi Eğitim Yayıncılık, – November 3-6, – 2022. – s. 831-839.
7. The importance of the Azerbaijani-Turkish model of energy security for Europe // – Кiев: Полiтикус, –2022. № 1, – p. 122-127.



Dissertasiyanın müdafiəsi “ 19 ” iyun 2025-ci il tarixində saat 11⁰⁰-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının FD 2.30 Dissertasiya Şurası nəzdində fəaliyyət göstərən BED 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı, Lermontov küç. 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “ 19 ” may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2025
Kağızın formatı: A5
Həcm: 37.132
Tiraj: 100